# Şuşa ilə qardaşlaşmış şəhərlər

Şəhərlərin qardaşlaşması müxtəlif mədəniyyətlərin harmoniyası üçün ən optimal versiyalardan biridir. İndi biz ölkəmizin şəhərləri ilə qardaşlaşan şəhərlərdən söz açırıq. Bu dəfə şanlı Şuşa şəhərimizlə qardaşlaşan şəhərlərdən bəhs edəcəyik. Şuşa ilə qardaşlaşan şəhərlərdən biri Macarıstan ölkəsinə aid olan Dyöndyöş şəhəridir. Digər bir şəhər isə Türkiyənin Kayseri şəhəridir.

2013-cü il may ayının 8-də, Dyöndyöş şəhəri Azərbaycanla Macarıstan əlaqələrinə töhfə verərək, Şuşa şəhəri ilə qardaş şəhər elan olunub.

Sentyabrın 21-də Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Ərzurum Böyükşəhər Bələdiyyəsi arasında iki dost və qardaş ölkə kimi strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu nəzərə alaraq qardaşlaşmış şəhərlər haqqında protokol imzalanıb. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən verilən məlumata görə, protokol qardaşlaşmış şəhərlər arasında mədəni, sosial və iqtisadi münasibətləri, həmçinin dostluq və qardaşlıq əlaqələrini təşviq etmək və birgə fəaliyyət sahələrini genişləndirməyi əsas tutur.

Tərəflər arasında birgə proqram, layihələr, qarşılıqlı səfərlərin təşkili, habelə təcrübə və məlumat mübadiləsi, bərabərlik, dostluq, qardaşlıq və ümumi maraq prinsiplərinə uyğun olaraq, incəsənət, mədəniyyət, turizm, elm, ticarət və informasiya texnologiyaları sahələrində əməkdaşlıq nəzərdə tutulub. Sənədi Ərzurumda səfərdə olan Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov və Ərzurum Böyükşəhər Bələdiyyəsinin başçısı Mehmet Sekmen imzalayıblar.

Məlumat üçün bildirək ki, dövlətçilik və mədəniyyət tariximizdə önəmli rola malik olan Şuşa şəhəri 2021-ci ildə Türkiyənin Kayseri şəhəri ilə, 2022-ci il avqustun 24-də isə Qazaxıstanın Türküstan şəhəri ilə qardaşlaşıb.

“Şuşa şəhərinin mədəniyyət paytaxtımız elan edilməsi, bu ilin “Şuşa İli” olması onu göstərir ki, dövlət başçımızın da Şuşaya xüsusi diqqəti var. Məlumdur ki, Şuşa şəhərinin əsası 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulub. Bu il Şuşanın 270 illiyi tamam olur, hətta bununla bağlı cənab Prezident Sərəncam da imzalayıb. Şuşaya verilən önəm həm Azərbaycanda, həm də bütün Türk dünyasında yüksək dəyərləndirilir.

25.02.2023-cü il tarixli müsahibəsi Azərbaycan və Özbəkistanın bir sıra şəhərləri, xüsusi ilə Xivə və Şuşa şəhərləri arasında «Qardaşlaşmış şəhərlər» haqqında müqavilə imzalanıb. 24 fevral tarixində Daşkənddə keçirilən 1-ci Özbəkistan-Azərbaycan

Regionlararası Forumu çərçivəsində iki ölkə arasında 11 sənəd imzalanıb. Bu sənədə əsasən Özbəkistanın Xivə və Azərbaycanın Şuşa, Səmərqənd və Gəncə, Buxara və Lənkəran, Kokand və Şəki şəhərləri arasında qardaşlaşmış şəhərlər haqqında müqavilədir. Sözügedən hadisə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasının nəticəsi olaraq baş verib. İclasda Azərbaycanın iqtisadiyyat naziri, Azərbaycan-Özbəkistan Hökumətlərarası Komissiyanın həmsədri Mikayıl Cabbarov Azərbaycan nümayəndə heyətinə rəhbərlik edib, Özbəkistana səfər çərçivəsində Daşkənddə Özbəkistan və

Qarabağ, Şuşa - Azərbaycan mədəniyyətinin, musiqisinin beşiyi, Xarəzm vilayəti, Xivə şəhəri isə Mərkəzi Asiyanın, Özbəkistanın mədəniyyət, incəsənətin vətəni və musiqi sənətinin inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Nazirlər Kabinetinin təsdiq etdiyi "Şuşa İli" ilə bağlı Tədbirlər Planı"nda əksini tapıb.

Tədbirlər Planında Xarici İşlər Nazirliyinə 2022-ci ildə Şuşa şəhərinin müxtəlif ölkələrin şəhərləri ilə qardaşlaşmış şəhər statusu alması ilə bağlı müvafiq işlərin həyata keçirilməsi tapşırılıb.

Təhsil Nazirliyi və Xarici İşlər Nazirliyi isə 2022-ci il ərzində UNESCO Assosiativ Məktəblər Şəbəkəsinə (ASPnet) üzv olan məktəblərin, "Qardaşlaşmış məktəblər" təşəbbüsünə qoşulmuş yerli və xarici ümumtəhsil müəssisələrinin "Şuşa İli" ilə bağlı birgə tədbirlərinin keçirilməsini təmin etməlidir.

Xivə 2020-ci il üçün, Şuşa isə 2023-cü il üçün TÜRKSOY tərəfindən «Türk dünyasının mədəniyyət paytaxtı» elan edilibdir.

Sovet dövründə 1979-cu ildə Ulu öndər Heydər Əliyevin hamiliyi ilə Azərbaycanda keçirilən "Özbəkistan ədəbiyyatı və incəsənəti günləri" çərçivəsində Özbək ədəbiyyatı və mədəniyyətinin nümayəndələri Lənkəran şəhərində olaraq çoxsaylı görüşlər keçirmiş, səfər zamanı Özbəkistanın xalq şairi Zülfiyəyə Azərbaycanın Lənkəran şəhərinin fəxri vətəndaşı adı verilib.

Gəncə və Səmərqəndin ölkələrimizin həm iqtisadi, həm də mədəni həyatında rolu böyükdür. Böyük şəxsiyyətlər yetişdirən bu şəhərlərdə həm dünya əhəmiyyətli unikal tarixi abidələr, həm də müqəddəs dini məkanlar yerləşir. Hər iki şəhərin, bölgənin turizm imkanları olduqca böyükdür. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə 2015-ci ildən başlayaraq hər il Özbəkistanın Səmərqənd şəhərində Azərbaycan mədəniyyət günləri keçirilir, bu tədbirlər çərçivəsində Səmərqənd şəhəri ilə Azərbaycan şəhərləri arasında

əməkdaşlığin yaradılması üzrə işlər həyata keçirilir. Ötən müddət ərzində Səmərqənd şəhər hakimiyyətinin rəhbərlərinin Azərbaycana səfəri təşkil olunmuşdur.

Azərbaycan Mədəniyyət Mərkəzinin 2023-cü il təsdiq olunmuş iş planına əsasən Özbəkistanın aparıcı media qurumları, jurnalistlərin iştirakı ilə Şuşaya mediaturun təşkili, Özbəkistan Jurnalistlər İttifaqı ilə birgə hər il qardaş ölkənin KİV-ləri arasında Azərbaycan haqqında müxtəlif nominasiyalar üzrə elan etdiyimiz müsabiqədə bir nominasiyanın Şuşaya həsr olunması, "Xivə-Bursa-Şuşa: Türk dünyasının mədəniyyət paytaxtları" adlı layihənin həyata keçirilməsi, Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu ilə birgə «Kokand və Şuşa ədəbi mühitinin Türk ədəbiyyatında yeri və rolu: Nadirabegim və Natəvan yaradıcılığı konteksində» adlı elmi konfransın keçirilməsi, nəşrin hazırlanması, Özbəkistanın Səmərqənd, Buxara, Kokand şəhərlərində yerləşən universitetlərlə Azərbaycanın Gəncə, Lənkəran və Şəki şəhərlərində ali təhsil ocaqları arasında əlaqələrin yaradılması, qarşılıqlı səfərlərin, mədəniyyət, turizm, gənclər təşkilatları arasında əlaqələrin genişlənməsi, birgə elmi araşdırmaların, layihələrin icrasına dəstək nəzərdə tutulub.